Bülleten № 05 / may 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

MAY 2013

# Elektron Hökumət Bülleteni



*Mən həmişə fəxr etmişəm,*
*bu gün də fəxr edirəm ki,*
*mən Azərbaycanlıyam!*

Heydər Əliyev

## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



www.e-gov.az

# Prezident İlham Əliyev: "Elektron xidmət", "Elektron hökumət" layihələri rüşvətxorluğa qarşı atılan çox önəmli addımlardır"



Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqində qeyd edib ki,:

*"Ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə çox sürətlə aparılır. Bu mübarizə hərtərəfli şəkildə aparılır. Korrupsiya və rüşvətxorluq cəmiyyət üçün ən böyük problemlərdən biridir, ən böyük yaramızdır. Biz inkişaf etmiş ölkələrin bu sahədə də təcrübəsini nəinki öyrənməliyik, eyni zamanda, tətbiq etməliyik. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm ki, yalnız cəza tədbirləri, inzibati tədbirlər bizim istədiyimizə nail olmaq üçün kifayət etməz. Əlbəttə ki, cəza tədbirləri də olmalıdır, hüquq-mühafizə orqanları da bu istiqamətdə öz fəaliyyətini davam etdirməlidir. İnzibati tədbirlər də görülür və görüləcəkdir.*

*Ancaq institusional tədbirlərin genişlənməsi, tətbiqi, sistem xarakterli islahatların aparılması və davam etdi-rilməsi, hesab edirəm ki, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da yaxşı imkan yaradacaqdır. Biz korrupsiya, rüşvətxorluq üçün mövcud olan meydanı maksimum dərəcədə daraltmalıyıq. "Elektron xidmət", "Elektron hökumət" layihələri bu istiqamətdə atılan çox önəmli addımlardır.*

*Məmur-vətəndaş ünsiyyəti bu istiqamətdə minimuma endirilməlidir. Yenə də inkişaf etmiş ölkələrin təcrübəsini biz maksimum dərəcədə tətbiq etməliyik. Buna görə də Azərbaycanda İKT sektorunun inkişafına daha da böyük diqqət göstərilməlidir və göstəriləcəkdir"*

## Azərbaycanda 2016-cı ilə qədər "Elektron hökumət"in inkişafı üzrə yeni proqram hazırlanır

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tərəfindən "2013-2015-ci illərdə "Elektron hökumət"in inkişafı Dövlət Proqramı" layihəsi hazırlanır.

Təxminən ayın sonuna qədər layihə Prezident Administrasiyasına təqdim olunacaq. Bu proqram "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın davamıdır.

Yeni proqram respublikada "Elektron hökumət"in formalaşdırılması və bunun üçün dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi yolu ilə idarəetmənin metod və mexanizmlərinin təkmilləşdirilməsi, elektron xidmətlərin göstərilməsi, həmçinin əhali və təşkilatların bu xidmətlərə asan və sərbəst çıxışı üçün kompleks tədbirlərin görülməsini nəzərdə tutur.

## Azərbaycan nümayəndə heyəti "TİBO-2013" beynəlxalq sərgi və forumunda iştirak edib

Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasovun rəhbərliyi ilə ölkənin dövlət, özəl və qeyri-hökumət qurumlarının 60-a yaxın rəhbər nümayəndələri Belarus Respublikasının Minsk şəhərində 20-ci telekommunikasiya, rabitə, təhlükəsizlik, informasiya və bank texnologiyaları üzrə ixtisaslaşmış "TİBO-2013" beynəlxalq sərgi və forumunda iştirak ediblər.

Ali qonaqlar VİP-tur çərçivəsində Azərbaycanın stendinə baş çəkib və ölkəmizin İKT sahəsində əldə etdiyi nailiyyətlərlə yaxından tanış olublar.

Səfər çərçivəsində ikinci Belarus - Azərbaycan İKT Forumu keçirilib. Bu forum ölkələr arasında İKT sahəsində əməkdaşlıq imkanlarının müzakirə edilməsi, təcrübələrin bölüşdürülməsi, həmçinin gələcək imkanlar üçün əsaslı şəraitin yaradılması məqsədi daşıyır.

Forumda hər iki ölkə arasında İKT sahəsində qarşılıqlı əməkdaşlığa dair sənədlər imzalanıb, eyni zamanda gələcək perspek-tivlər müzakirə olunub.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Azərbaycan IT inkişaf hesabatında mövqelərini yaxşılaşdırıb

Ümumdünya İqtisadi Forumu (ÜİF) informasiya texnologiyalarının inkişafı haqqında (Global Information Technology Report 2013) yeni hesabat dərc edib. Forumun saytında yerləşdirilən hesabatda dünyanın 144 ölkəsinin şəbəkə hazırlığı indeksi (NRİ) öz əksini tapıb.

Azərbaycan ötənilki göstəricisini 5 pillə yaxşılaşdıraraq hesabatda 4,11 balla 56-cı mövqeni tutub.

ÜİF mütəxəssisləri habelə "Azərbaycan: Sürətlə dəyişən dünya şəraitində böyük ambisiyalar" başlığı altında ölkəyə ayrıca bölmə həsr ediblər. Burada respublikanın İKT-nin inkişafı və bu sektorda maksimum fayda əldə olunması üzrə səyləri haqqında danışılır. Mütəxəssislər vurğulayırlar ki, ölkə İKT sektorunun inkşafına xüsusi önəm verir.

Trend xəbər verir ki, hesabatda Azərbaycanla yanaşı, Qazaxıstan (43-cü yer) və Rusiya (54-cü yer) MDB məkanında İKT sektorunun ən çox inkişaf etdiyi ölkələr kimi göstərilib.

Hesabatda Gürcüstan 65-ci, Ermənistan isə 82-ci yerdə qərarlaşıb.

ÜİF-nun mütəxəsisləri Azərbaycanda IT-nin inkişafının güclü tərəfləri kimi bu sektorun hökumət üçün prioritet olmasını, innovasiyalara hazırlıq, əhalinin savadlılığı, İKT xidmətlərinin əlçatan olduğunu göstəriblər.

Hesabatda birinci yeri Finlandiya tutub. İkinci yerdə Sinqapur, üçüncü yerdə isə İsveç qərarlaşıb. İlk onluğa, həmçinin Niderland, Norveç, İsveçrə, Böyük Britaniya, Danimarka, ABŞ və Çin daxil olub.

Hesabatın hazırlanmasında məqsəd internet şəbəkələrinin inkşafına təsir edən amilləri müəyyənləşdirmək, informasiya texnologiyalarının inkişafında nizamlama və biznes-infrastruktur amillərinin analizidir.

Hesabatın metodologiyası üç komponentdən ibarətdir:

- "Mühit" - texnoloji bazar, tənzimləyici, qanunvericilik iqlimi, İKT infasturukturu qiymətləndirilir.

- "Hazırlıq" - hökumətin, işgüzar dairələrin, fərdi istehlakçıların İKT-dən istifadə imkanları qiymətləndirilir.

- "İstehlakçı" - hökumətin, işgüzar dairələrin və fərdi istehlakçıların İKT məhsulları və xidmətlərindən istifadə bacarıqları qiymətləndirilir.

# İKT-nin inkişaf səviyyəsini müəyyən etmək üçün BTİ-də "Elektron hökumət"lə bağlı 7 indikator təsis edilib



Ölkələr üzrə İKT-nin inkişaf səviyyəsini müəyyən etmək üçün Beynəlxalq Telekommunikasiya İttifaqında (BTİ) yeni indikatorlar yaradılıb. Beynəlxalq Telekommunikasiya İttifaqının İKT üzrə statistik məlumatlar və informasiya bölməsinin rəhbəri Syuzan Telçer bu barədə Naxçıvan Muxtar Respublikasında keçirilən BTİ-nin MDB ölkələri üçün "Beynəlxalq standartlara uyğun olaraq telekommunikasiya/İKT indikatorlarının unifikasiyası" mövzusunda regional seminarında məlumat verib.

Onun sözlərinə görə, BTİ-də İKT üzrə toplanan indikatorlar beynəlxalq səviyyədə razılaşdırılmış əsas indikatorlar siyahısını təşkil edir: "Əgər milli səviyyədə toplanan məlumatları digər ölkələrlə müqayisə etmək istəyiriksə, o zaman indikatorlara əsas bu informasiyalar çox münasib istinad siyahısıdır. Bu siyahıda hər sahə üzrə fərqli indikatorlar yer alıb".

Məsələn, "İKT sektoru təhsildə" istiqaməti üzrə 8 indikatorun müəyyənləşdirildiyini və bu statistik məlumatların UNESCO Statistika İnstitutu tərəfindən aparıldığını deyən BTİ rəsmisinin sözlərinə görə, hazırda yeni indikatorlar da nəzərdən keçirilir:

"İndikatorlardan 7-si "Elektron hökumət"lə bağlıdır. Hələlik bununla bağlı statistik məlumatların toplanmasına başlanmayıb. Çünki bu indikatorlar yeni təsis edilib".

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Klaus Kersten: "Avstriya Azərbaycanla elektron xidmətlərdən istifadənin genişləndirilməsi sahəsində təcrübəsini bölüşməyə hazırdır"

Avstriya "Elektron hökumət" quruculuğu və elektron xidmətlərdən istifadə ilə bağlı Azərbaycanın təhsil sektoru ilə əməkdaşlıq etməkdə maraqlıdır. Avstriyanın Beynəlxalq Biznes Məktəbinin (International Business School Austria) direktoru Klaus Kersten məlumat verib.

Direktor elektron xidmətlərdən istifadənin genişləndirilməsi və kütləviləşdirilməsi sahəsində əhalinin maarifləndirilməsi metodları üzərində uzun illərin təcrübəsinə malik olduqlarını qeyd edib: "Avropa Komissiyası məktəbyaşlılara gələcək həyatlarında lazım ola biləcək bütün məlumatların, həmçinin onların gələcəkdə sahibkar kimi yetişməsində vacib rolu ola biləcək bütün zəruri informasiyaların elə məktəb masası arxasından verilməsinə başlanılması ilə bağlı 2004-cü ildə qərar verib.

Komissiya bu qərarla Avropa Birliyi ölkələrinə konkret mesaj göndərdi ki, sahibkarlıq üçün artıq kadr hazırlığı aparılmalıdır. Buna cavab olaraq, Avstriya Ticarət Palatası təhsil proqramı - kurrikulum hazırladı".

K.Kerstenin sözlərinə görə, kurrikulumun əsas istiqamətini gənclərin gələcək sahibkarlıq fəaliyyətinə hazırlanması təşkil edir:

"Bunun nəticəsi olaraq, gənclərə müvafiq təhsil üzrə sertifikat xarakterli sənəd verilir. Bu, Avstriya Ticarət Palatasının ən böyük layihələrindən sayılır. Həmçinin layihə Avropa Komissiyası tərəfindən ən uğurlu və ən yaxşı layihələrdən biri kimi qiymətləndirilib və hazırda bir çox ölkələrdə istifadə olunur. Bizim həm müəllim, həm də şagird kontingenti üçün çox geniş təlim-tədris materiallarımız var. Bunun üçün biz elektron imtahan sistemi də yaratmışıq. Kurrikulumun Avstriyada uğurla tətbiqindən sonra 10-dan çox ölkədə müvafiq təcrübədən istifadə olunub. O cümlədən, Almaniya, Fransa, Polşa, Xorvatiya, Afrikanın bir çox ölkələrində bu proqram tətbiq edilib. Bu yaxınlarda artıq Rusiya ilə də razılığa gəlmişik. Hazırda kurrikulum rus dilinə tərcümə edilib istifadə olunur. Əgər Azərbaycan tərəfinin də bununla bağlı marağı varsa, danışıqlar çərçivəsində biz bu məhsulları buraya gətirə və yerli tələbata uyğunlaşdırıb istifadə edə bilərik".

## Andreas Rayxhard: "Azərbaycan "Elektron hökümət" sahəsində çox müsbət inkişaf səviyyəsi nümayiş etdirir"

Gələcək illərdə İKT sahəsinin inkişaf etdirilməsi hesabına ölkə iqtisadiyyatının şaxələndirilməsi və daha da gücləndirilməsini hədəfə alan Azərbaycan üçün sözügedən sahədə beynəlxalq əməkdaşlığın rolu olduqca önəmlidir. Bu aspektdən, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində qarşılıqlı əlaqələrin inkişafına yönələn növbəti görüşlər Avstriya tərəfi ilə keçirilib.

Avstriyanın nəqliyyat, innovasiya və texnologiyalar üzrə federal nazir müavini Andreas Rayxhard Azərbaycanda "Elektron hökümət" quruluculuğu istiqamətində aparılan tədbirləri yüksək dəyərləndirir və bununla bağlı fikirlərini "Rabitə dünyası" qəzetinə verdiyi müsahibəsində paylaşıb: "Azərbaycan "Elektron hökumət" sahəsində artıq çox böyük nailiyyətlər əldə edib. Düşünürəm ki, bu, Azərbaycan üçün bir kompliment olaraq qeyd edilməlidir. Ölkəniz bu istiqamətdə çox müsbət inkişaf səviyyəsi nümayiş etdirir. Eyni zamanda Azərbaycan ümumilikdə İKT sahəsində dünyanın bir çox ölkələri ilə müqayisədə hazırda daha sürətlə inkişaf edir. Konkret olaraq, genişzolaqlı internet xidmətlərindən istifadənin genişləndirilməsi, digər İKT xidmətləri üzrə aparılan tədbirləri qeyd etmək olar."

Nazir müavini elekron xidmətlərlə bağlı Azərbaycanla əməkdaşlıq məsələlərinə də toxunub: "Dövlətin bu sahəyə xüsusi diqqət ayırması İKT sektorunun Azərbaycan üçün çox önəmli sahə olduğunun göstəricisidir, həmçinin bu sektorun ölkənizdə böyük gələcəyinin olduğunu deməyə əsas verir. Avstriya təcrübəsinə gəlincə, İKT sahəsi ilə bağlı hansı istiqamətlər üzrə Avstriya təcrübəsindən, informasiya texnologiyalarından istifadə etməyin mümkünlüyü barədə hazırda mütəxəssis və ekspertlər səviyyəsində işçi qaydada danışıqlar, müzakirələr aparılır."

Andreas Rayxhard həmçinin müsahibəsində qeyd etmişdir ki, burada önəmli yerlərdən birini əhalinin maarifləndirilməsi, eyni zamanda elektron xidmətlərdən istifadənin genişləndirilməsinin təlim və tədris prosesləri üzərindən aparılması tutur.

"Çünki yalnız texnoloji vasitələrin mövcudluğu onlardan effektiv istifadənin mümkün olduğunu düşünməyə əsas vermir. Eyni zamanda burada önəmli rol oynayan elektron xidmət istifadəçilərinin, əhalinin biliklərinin artırılmasıdır. Ona görə də Azərbaycan tərəfi ilə danışılan konkret mövzulardan biri də şagirdləri artıq məktəb masasından bu sahədə maarifləndirmək, gələcək sahibkarların hazırlanması üçün müəyyən proqramların həyata keçirilməsi və sertifikatlaşdırmadır. Qeyd etmək istərdim ki, Avstriya Avropa Birliyi (AB) çərçivəsində bu sahədə aparıcı dövlətdir və AB tərəfindən ən yüksək qiyməti alıb. Bizim təcrübəmiz artıq bütün Avropa Birliyi ölkələrində istifadə olunur. Təbii ki, çox istərdik ki, biz həmin tədris təcrübəsindən Azərbaycanda da öz töhfəmizi verə bilək."- Avstriyanın nazir müavini deyib.

## Azərbaycanda pensiya təyinatı iyulun 1-dən elektron sistemə keçəcək

Bu ilin iyul ayının 1-dən etibarən Azərbaycanda pensiya təyinatı elektron sistemə keçəcək. "ICTnews.az" elektron xəbər xidmətinin məlumatına görə, bu barədə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Səlim Müslümov jurnalistlərə verdiyi açıqlamasında söyləyib.

DSMF sədri bildirib ki, bununla əlaqədar proqram təminatı yekunlaşdırılıb. Elektron sistemə keçmək üçün çağrı mərkəzinin formalaşdırıldığını qeyd edən S.Müslümovun sözlərinə görə, sözügedən sistemə daxil olmaq üçün vətəndaşlar da aktivlik göstərməlidirlər: "Elektron sistemə keçid üçün vətəndaşlar əmək kitabçaları barədə məlumatları yerli şöbələrdə təsdiq etdirməlidirlər. Hazırda 2006-cı il yanvarın 1-dək olan dövr üçün əmək stajları barədə məlumatlar sistemləşdirilir. Bununla əlaqədar fərdi uçot sistemində sosial sığortası olan 2 milyon 435 min nəfərin 28 faizi barədə məlumatlar sistemə daxil edilib".

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron Hökumət" portalı yeni funksiyalarla zənginləşdirilib




"Elektron hökumət" portalı (www.e-gov.az) tam yeni tərtibatda və yeni dizaynda fəaliyyətə başlayıb. Yeni funksiyalarla zənginləşdirilən portalın əsas menyusuna "Elektron hökumət", "Yeniliklər", "Reyestr və aktlar", "Elektron imza", "Sənədlər" kimi bölmələr daxildir. İstifadəçilər portalda yerləşdirilən xidmətlər haqqında ən yeni məlumatları da əldə edə bilərlər.

Həmçinin bu sahəyə aid faydalı keçidlər də portalın əsas tərkib hissəsidir. Qeyd edək ki, "Elektron hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinin şərait yaradır.

Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən, vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün "Bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi "Elektron hökumət" portalı tətbiq edilir.

Elektron hökumət xidmətlərinin qısa təhlilinə gəlincə, portalda 35 dövlət qurumu tərəfindən 207 elektron xidmət istifadəçilərə təqdim edilib. Hər bir dövlət qurumu elektron xidmətlərini "Bir pəncərə" prinsipi əsasında istifadəçilərə portal vasitəsilə təqdim edir, məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə qurumlar cavabdehdirlər.

Vətəndaşlara bu cür xidmətlərin göstərilməsi dünya təcrübəsində dövlət idarəçiliyində bir innovasiya kimi qəbul edilir. Vətəndaş istənilən dövlət qurumuna müraciət edib, ona aid olan lazımi məlumatı qanun çərçivəsində əldə edə bilər. Portal vasitəsilə dövlət idarəçiliyində keyfiyyətli elektron xidmətlərin göstərilməsi vətəndaşların həmin xidmətlərdən aktiv istifadəsinə imkan yaradır.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yeni xidmətini təqdim etdi

Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya "Elektron hökumət" portalı vasitəsilə 4-cü elektron xidmətini istifadəyə təqdim etdi. "Dövlət qulluqçularının Reyestrindən məlumatların verilməsi" adlanan bu xidmət vasitəsilə qurumda çalışan dövlət qulluqçuları haqqında ətraflı məlumat əldə etmək mümkündür. Məlumat axtarışı dövlət qulluqçularının Fərdi İdentifikasiya Nömrəsi (Pin) əsasında aparılır. Burada dövlət qulluqçusunun soyadı, adı, doğulduğu tarix, yaşadığı məntəqə, əlaqə vasitələri, iş yeri və vəzifəsi haqqında ətraflı məlumat verilir.

## Səhiyyə Nazirliyinin növbəti elektron xidməti təqdim olundu

Səhiyyə Nazirliyinin növbəti elektron xidməti "Elektron hökumət" portalı vasitəsilə vətəndaşlara təqdim olundu. Bu xidmət "Tibbi kadrların vahid registrindən məlumatların verilməsi" adlanır. Axtarış tibbi kadrların şəxsiyyət vəsiqəsindəki Fərdi İdentifikasiya Nömrəsi (PİN) əsasında aparılır.

Burada tibbi kadrlar haqqında ətraflı məlumat əldə etmək mümkündür. Məsələn tibbi kadrların doğum tarixi, ailə vəziyyəti, telefonu, elektron poçt ünvanı, işlədiyi rayon, şəhər, müəssisə, işə qəbul olunma tarixi, işlədiyi ixtisas, vəzifəsi, ştat vahidi, hazırki ixtisas üzrə stajı, elmi vəzifəsi, dərəcəsi, təhsili, keçdiyi kurslar, aldığı sertifikatlar və s. haqqında məlumat əldə etmək imkanı vardır.

## Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yeni elektron xidməti istifadəyə verildi

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin növbəti yeni elektron xidməti "Elektron hökumət" portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim edildi. Bu elektron xidmət "Telefon nömrəsi üzrə axtarış" adlanır. Telefon nömrəsini daxil etdikdən sonra istifadəçilər bir sıra məlumatları əldə etmək imkanına malik olurlar. Bu məlumatlar içərisində nömrə sahibinin adı, soyadı, yaşadığı ünvan, abunəçinin növü, vətəndaşın şəhərlərarası və beynəlxalq danışıqlar üzrə borcları, ADSL internet borcları və s. qeyd etmək olar. Bu xidmət həmçinin istifadəçilərə borclarını online şəkildə ödəməyə də imkan verir.

Daha bir xidmət vətəndaşların istifadəsinə təqdim olundu. "Radiorabitə vasitələrinin qeydiyyatı üçün e-müraciətin və sənədlərin göndərilməsi" adlanan bu xidmət vasitəsilə vətəndaşlar RİTN-nin Dövlət Radiotezliklər İdarəsi tərəfindən təqdim olunan ərizə formasını doldurmaqla öz müraciətlərini göndərmək imkanına malik olurlar.

Tələb olunan məlumatlar içərisində REV-lərin siyahısı, tipi, markası, sayı, rəhbər şəxsin adı və soyadı, vəzifəsi, müraciət edən təşkilatın tam adı, elektron poçt ünvanı və s. qeyd etmək olar. Eyni zamanda müraciət edən şəxslərdən uyğunluq sertifikatı və xüsusi icazə ilə bağlı faylların da yüklənilməsi tələb olunur.

## Ədliyyə Nazirliyinin növbəti xidməti istifadəyə verildi

Ədliyyə Nazirliyinin sayca beşinci elektron xidməti "Elektron hökumət" portalı vasitəsilə vətəndaşların istifadəsinə verildi. "İcra qurumları və onlar tərəfindən hərraca çıxarılan əmlaklar, eləcə də dəyəri 500 manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri haqqında məlumatın verilməsi" adlanan və informativ xarakter daşıyan bu xidmət vasitəsilə bütün vətəndaşlar dəyəri 500 manatdan artıq olmayan daşınar əmlakın satışı üzrə ticarət şəbəkələri haqqında ətraflı məlumat əldə etmək imkanına malik olurlar. Burada orqanın adı, məsul şəxs, telefonlar, ünvan, iş günləri, iş vaxtları, fasilə və istirahət günləri ilə bağlı informasiya əks olunur.

## www.karyeram.az

Gənclər və İdman Nazirliyi tərəfindən gənclər təşkilatlarının layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan olunmuş müsabiqə çərçivəsində "Demokratik Gənclər İctimai Birliyi tərəfindən "Peşələri məsafədən seçək!" distant məlumat məsləhət xidmətinin yaradılması layihəsi həyata keçirilir. Layihə çərçivəsində "www.karyeram.az" internet portal hazırlanıb. Gənclər portal vasitəsi ilə özlərinin bacarıqlarının hansı istiqamətə daha uyğun olduqlarının müəyyən edilməsi, müxtəlif iş və peşə seçimi imkanları, distant təhsil vasitəsi ilə müxtəlif kurslardan keçmə imkanlarına, eyni zamanda interaktiv məlumat – məsləhət xidmətlərinin alması kimi imkanlara malik olacaqlar.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

Bütün qurumlar üzrə

| № | Qurumun adı | Dövlət İnformasiya Ehtiyatları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|---|---|
| 1 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 4 | 3 | 7 |
| 2 | Dövlət Gömrük Komitəsi | 1 | | 1 |
| 3 | Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 | | 1 |
| 4 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 | | 6 |
| 5 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | | 1 |
| 6 | Dövlət Dəniz Administrasiyası | 1 | 1 | 2 |
| 7 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 2 | | 2 |
| 8 | İqtisadi İnkişaf Nazirliyi | 1 | | 1 |
| 9 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 1 | 1 | 2 |
| 10 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | | 2 | 2 |
| 11 | "Bakıelektrikşəbəkə" ASC | | 2 | 2 |
| 12 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | | 2 | 2 |
| 13 | Dövlət Miqrasiya Xidməti | | 1 | 1 |
| 14 | Azərbaycan Respublikasının Mərkəzi Bankı | | 2 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | | 4 | 4 |
| 16 | Dövlət Sosial Müdafiə Fondu | 1 | 1 | 2 |
| 17 | Vergilər Nazirliyi | 1 | | 1 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 6 | | 6 |
| 19 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 | | 4 |
| 20 | "Azərenerji" ASC | 1 | 1 | 2 |
| 21 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm - İstehsalat Mərkəzi | 1 | | 1 |
| 22 | Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti | 1 | | 1 |
| 23 | "Ata Sığorta" Açıq Səhmdar Cəmiyyət | | 1 | 1 |
| 24 | Bank Melli İran | | 1 | 1 |
| 25 | "Zamin Bank " ASC | | 1 | 1 |
| 26 | "Alfa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 27 | "Buta Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 28 | "Parabank" ASC | | 1 | 1 |
| 29 | “Paşa Sığorta” Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 30 | "Azedunet" MMC | | 1 | 1 |
| 31 | "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 32 | "Turanbank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 33 | "Konnekt" Məhdud Məsuliyyətli Cəmiyyəti | | 1 | 1 |
| 34 | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | 1 | 2 | 3 |
| 35 | "Qala Həyat Sığorta" ASC | | 2 | 2 |
| 36 | "Meqa Sığorta" ASC | | 1 | 1 |
| 37 | "Rabitəbank" ASC | | 1 | 1 |
| 38 | "Bank of Baku" ASC | | 1 | 1 |
| | CƏMİ | 34 | 38 | 72 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.
Əlavə məlumatı https://governmentsregistry.ehdis.az portalından əldə etmək mümkündür.

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

Bülleten № 05 / may 2013

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

01.05.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 5 | 6 | 9 | 10 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 5 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 7 | 7 | 12 | 9 |
| 7 | Vergilər Nazirliyi | 57 | 3 | 9 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 3 | 6 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 10 | 10 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 21 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 0 | 3 | 25 | 3 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 8 | 9 | 13 | 13 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 24 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 2 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 1 | 6 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 8 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 16 | 3 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 3 | 3 | 6 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 0 | 0 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 4 | 11 | 11 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 3 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 2 | 4 | 12 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 0 | 0 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **145** | **200** | **403** | **319** |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.04.2013 – 30.04.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı

| № | Xidmətin adı | Təchizatçının adı | Sayı |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 21143 |
| 2 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 6134 |
| 3 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 6026 |
| 4 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2265 |
| 5 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1956 |
| 6 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 1341 |
| 7 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 1019 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 672 |
| 9 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 649 |

### 01.04.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxlərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 8906 | 253 | 2769 | 11928 |

## "Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə Koreya ilə qrant razılaşması imzalanıb




"Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə "Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Qrant razılaşması" imzalanıb.

Sənədi rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Koreyanın Azərbaycandakı səfiri Çoi Suk-İn imzalayıb. Qeyd edək ki, layihə çərçivəsində Bakı şəhərində və Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəki daxil olmaqla on beş (15) bölgədə təlim mərkəzləri yaradılacaq.

Təlim mərkəzlərində Koreya mütəxəssisləri tərəfindən xüsusi təhsil informasiya sistemi quraşdırılacaq və zəruri avadanlıqlarla təmin olunacaq. Dövlət qulluqçuları bu mərkəzlərdə bilavasitə təlim kurslarında iştirak edə biləcək, eyni zamanda mərkəzin distant təhsil xidmətlərindən yararlanacaqlar.

Layihə çərçivəsində təlim mərkəzinin fəaliyyətinin təşkili, elektron təlim materiallarının hazırlanması üzrə təcrübə əldə etmək üçün yerli mütəxəssislər Koreyada təlim kursları keçəcəklər. Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması dövlət qulluqçularına İKT-nin tətbiqi sahəsində yeni praktik bilik və bacarıqların əldə edilməsinə imkan yaradacaq.

Mərkəz dövlət idarəçiliyində və respublikanın ictimai həyatının digər sahələrində e-hökumət ideyalarının tətbiqinə, informasiya cəmiyyətinin inkişafına, elektron biliklərin ümumi səviyyəsinin yüksəldilməsinə, elektron xidmətlərin artmasına xidmət edəcək.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.04.2013 – 30.04.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalındakı e-xidmətlərdən istifadə barədə statistik məlumat

| № | Xidmət təchizatcısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Daxili İşlər Nazirliyi | 3 | 1693 |
| 2 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 |
| 3 | Ədliyyə Nazirliyi | 8 | 2223 |
| 4 | Vergilər Nazirliyi | 10 | 1416 |
| 5 | İqtisadi İnkişaf Nazirliyi | 3 | 75 |
| 6 | Sənaye və Energetika Nazirliyi | 1 | 3 |
| 7 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 778 |
| 8 | Kənd Təsərrüfatı Nazirliyi | 9 | 21 |
| 9 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 | 10 |
| 10 | Təhsil Nazirliyi | 3 | 1155 |
| 11 | Səhiyyə Nazirliyi | 15 | 658 |
| 12 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 23 | 23824 |
| 13 | Gənclər və İdman Nazirliyi | 1 | 1 |
| 14 | Nəqliyyat Nazirliyi | 7 | 68 |
| 15 | Fövqaladə Hallar Nazirliyi | 4 | 104 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 3 | 17 |
| 17 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 2 | 13 |
| 18 | Qacqınların və Məcburi Kockunlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 11 |
| 19 | Dövlət Gömrük Komitəsi | 5 | 347 |
| 20 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 6 | 318 |
| 21 | Dövlət Statistika Komitəsi | 5 | 114 |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 88 |
| 23 | Dövlət Sosial Müdafiə Fondu | 12 | 16422 |
| 24 | Müəllif Hüquqları Agentliyi | 3 | 7 |
| 25 | Dövlət Dəniz Administrasiyası | 12 | 61 |
| 26 | Dövlət Sərhəd Xidməti | 2 | 3 |
| 27 | Milli Arxiv İdarəsi | 1 | 19 |
| 28 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 413 |
| 29 | "AzərEnerji" ASC | 1 | 2 |
| 30 | "AzərSu" ASC | 1 | 286 |
| 31 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 9 |
| 32 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 1 |
| | CƏMİ | 166 | 50161 |

* Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Dövlət Statistika Komitəsi növbəti elektron xidmətini təqdim etdi

Dövlət Statistika Komitəsi sayca 4-cü elektron xidmətini "Elektron hökumət" portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim etdi. Bu xidmət "Protokol nömrəsinə görə məlumatların (Protokol və Akt) əldə edilməsi və cərimənin ödənilməsi" adlanır. Lazımi informasiyanı əldə etmək və cəriməni ödəmək üçün vətəndaşlardan Komitə tərəfindən təqdim olunan ərizə formasını doldurmaq tələb olunur. Ərizənin ümumi detallarına protokolun nömrəsi, vətəndaşın adı və soyadı, iş yeri, vəzifəsi, ünvanı, telefon nömrəsi, elektron poçt ünvanı, poçt indeksinin yazılması daxildir. Burada həmçinin ödənişin növü və məbləğin göstərilməsi də tələb olunur. Ödənişin növü VISA Electron, VISA, MasterCard və Maestro plastik kartları ilə həyata keçirilir.

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin daha iki yeni xidməti istifadəyə verildi

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin daha iki yeni xidməti "Elektron hökumət" portalı vasitəsilə vətəndaşlara təqdim olundu. Bu xidmətlər "Meşə fondu torpaqlarından istifadə edilməsi üçün razılığın verilməsi" və "Ətraf mühit və təbii sərvətlərlə bağlı məlumatın verilməsi" adlanır.

"Meşə fondu torpaqlarından istifadə edilməsi üçün razılığın verilməsi" xidmətinin istifadəsi vətəndaşların şəxsiyyət vəsiqəsindəki PİN məlumatları əsasında mümkün olur. Vətəndaşlar Nazirlik tərəfindən onlara təqdim olunan ərizə formasını doldurmaqla bu sahədə razılıq əldə edə bilərlər. Ərizə formasındakı şəxsiyyət vəsiqəsindəki məlumatlar sistem tərəfindən avtomatik olaraq qeyd edilir. Növbəti hissələrdə vətəndaşlar fəaliyyət növünü, ünvan, telefon, elektron poçt ünvanını yazaraq, vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədin surətini, meşə fondu torpaqlarından istifadə edilməsi məqsədilə ərizəni, razılığın verilməsindən imtina edilmədiyi halda dövlət rüsumunun ödənilməsi haqqında təsdiq edici sənədi, meşə fondu torpaqlarından istifadə ilə bağlı müqaviləni fayl şəklində əlavə etməlidirlər. Burada həmçinin ərizəçinin müəyyən mətn daxil etmək imkanı da vardır.

"Ətraf mühit və təbii sərvətlərlə bağlı məlumatın verilməsi" xidmətindən istifadə də birinci xidmətdə olduğu kimi aparılır və müvafiq ərizə forması doldurulur. Bu ərizə formasında isə məlumatın verilməsindən imtina edilmədiyi halda dövlət rüsumunun ödənilməsi haqqında təsdiqedici sənədin, vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədin surətinin, həmçinin müqavilənin fayl şəklində əlavə olunması tələb olunur.

## İqtisadi İnkişaf Nazirliyinin iki yeni xidməti istifadəyə verildi

İqtisadi İnkişaf Nazirliyinin "Elektron hökumət" portalındakı yenilikləri davam edir. Nazirliyin daha 2 xidməti artıq istifadə üçün açıqdır. Bu xidmətlər "Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinə təsdiqedici kod nömrəsinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" və "İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi" xidmətləridir.

Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracı ilə məşğul olan istehsal və emal müəssisələrinin sahibləri Nazirlik tərəfindən tələb olunan anket formasını dolduraraq sorğularını göndərmək imkanına malik olurlar. Qeyd edək ki, həmin anket formasında vergi orqanları tərəfindən sahibkarların uçota alınmasını təsdiq edən müvafiq sənədin surəti də tələb olunur. "İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi" xidməti vasitəsilə isə sahibkarlar ödənişi yerinə yetirə bilərlər.

## Dövlət Dəniz Administrasiyası yeni elektron xidmətini təqdim etdi

"Elektron hökumət" portalında yeniliklər davam edir. Bu dəfə növbəti elektron xidmətini vətəndaşlara Dövlət Dəniz Administrasiyası təqdim etdi. Artıq vətəndaşlar neftlə çirklənmədən yaranan zərərə görə mülki məsuliyyətin maliyyə təminatı haqqında şəhadətnamənin verilməsi üçün müraciət edə bilərlər. Bunun üçün Dəniz Administrasiyası tərəfindən təqdim olunan ərizə formasını doldurmaq tələb olunur. Ərizə formasında vətəndaşın şəxsiyyət vəsiqəsindəki məlumatlar onun PİN nömrəsinə əsasən sistem tərəfindən avtomatik qeyd edilir. Formada vətəndaşın telefon nömrəsi, elektron poçt ünvanı, gəminin adı, qeydiyyat limanı, BDT/İMO nömrəsi, gəminin təsnifat cəmiyyəti, ümumi tutumu, gəminin mülkiyyətçisi haqqında məlumat, gəmi sahibi haqqında məlumatların yazılması vacibdir. Ərizə formasına sığorta və ya maliyyə təminatı ilə bağlı faylın əlavə edilməsi də mümkündür.

01.01.2013 – 30.04.2013 tarixlərdə "qeydiyyat tələb olunan" xidmətlərdən istifadə etmiş istifadəçilərin yaş hədləri üzrə xidmətlərdən ümumi istifadə aktivliyi




01.01.2013 – 30.04.2013 tarixlərdə "qeydiyyat tələb olunan" xidmətlərdən istifadə etmiş istifadəçilərin yaş hədləri aktivliyi




© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az